# "Həyəcanım səhnəyə çıxana qədər olur"



## İstedadlı pianoçu Toğrul Məmmədovun uğur hekayəsi

Lap erkən yaşlarından valideynləri onda musiqiyə hədsiz həvəs yarandığını hiss ediblər. Professional pianoçu olan atasının ifa etdiyi bütün klassik mahnıları çox həvəslə və diqqətlə dinlədiyini hiss edən anası Toğrulun da bu sənətə vurğunluğunu duyub. Övladların hələ heç kimə açmağa macal tapmadıqları, bəzi hallarda isə gizli saxladıqları arzu-niyyətlərini hamıdan qabaq duyan bir ali varlıq olaraq ana deyəsən bu qətiyyətində zərrəcə yanılmamışdı. Bəli, musiqiyə, xüsusilə fortopianoya həvəsinin günü-gündən daha çox artdığını hiss edən anası ailə ansamblını genişləndirmək məqsədilə 2014-cü ildə övladını Bülbül adına orta ixtisas musiqi məktəbinə qoyub. 2016-cı ildən isə Toğrul Azərbaycan Milli Konservatoriyasının tərkibində İncəsənət Gimnaziyasında təhsilini davam etdirir və hazırda IX sinif şagirdidir.

Artıq yaşıdları arasında və təhsil ocağında istedadlı fortepianoçu kimi tanınan Toğrul Məmmədovun həyat tarixçəsinə qısaca olsa da ekskurs etməkdə məqsədim onun musiqiçilər ailəsindən pöhrələndiyini önə çəkmək idi. Onun doğulub boya-başa çatdığı evdə hər gün bu musiqi alətinin dillərindən qopan həzin, düşündürücü, bəzi hallardasa kövrəldici və insanı göyün yeddinci qatına qanadlandıran melodiyalar hamının ruhuna, ovqatına bal qatıb, ailənin hər bir üzvü bu musiqilərin müşaiyəti ilə şirin yuxulara dalıblar, xəyalən uzaq-uzaq diyarlara səyahətə yollanıblar, öz zəngin dünyalarının al-əlvan rənglərində bulunublar.

**Həyəcanım ancaq səhnəyə çıxana qədər olur**

İstedadlı fortepianoçu öz üzərində çox çalışan musiqiçidir. Həyəcanım ancaq səhnəyə çıxana qədər olur,-deyir yeniyetmə fortepianoçu. Sonra isə əlavə edir: - Əslində bu, məsuliyyətdən irəli gəlir. Adam hər hansı bir işdə məsuliyyət hiss etməsə, heç vaxt uğur qazana bilməz.

**"Grand Prı" mükafatçısı olub**

...Toğrul doğrudan da sevib-seçdiyi fortepianoçu ixtisasını hədsiz dərəcədə sevir və onun mahir ifaçısı olmaq naminə gecəsini gündüzünə qatıb əzmkarlıq nümayiş etdirir. Və nəticə də göz önündədir. O, 2018 - ci ildə "Ümid-2018" Beynəlxalq müsabiqədə I yerə, 2018-ci ildə Macarıstanda Balaton şəhərində "Renaissance" Beynəlxalq festival müsabiqəsində "Grand Prıx"mükafatına, 2019-cu ildə " V Caspi Art Uluslararası sanat yarışması"nda (Türkiyə) I yerə layiq görülüb. Toğrul 2019-cu ildə Qazaxstanda keçirilən III Beynəlxalq "Əlem Talant Stars" müsabiqəsində qazandığı qələbənin onun həyatında oynadığı rolu xüsusi qeyd edir. Bu müsabiqənin proqramı üzərində müəllimi Zemfira Hüseynova ilə o, əzmlə çalışıb. Bu müsabiqəyə qatılan bütün pianoçular çox hazırlıqlı olublar. Olduqca məsuliyyət və əzmkarlıq, eləcə də yüksək istedad və yaradıcılıq qabiliyyəti tələb olunan müsabiqədə Toğrul ona yönəli olan bütün ümidləri doğruldaraq "Grand Prıx"mükafatçısı olub. Azərbaycanı bu mötəbər istedad yarışmasında layiqincə təmsil etdiyinə görə Toğrul çox sevinir və özünü dünyanın ən xoşbəxt adamı sayır. Və qazandığı bütün nailiyyətlərə görə yeniyetmə fortepianoçu sevimli müəllimi Zemfira Hüseynovanın qarşısında özünü ömrü boyu borclu sayır.

**İfalarında dünya bəstəkarlarının əsərlərinə daha çox yer ayırır**

Toğrul Filarmoniyada keçirilən konsertlərə getməyi çox xoşlayır, çünki burada o, bəstəkarların yeni-yeni əsərlərini həvəslə dinləyir. Azərbaycan bəstəkarlarının simfonik əsərlərini xüsusi şövqlə ifa etməyi sevən Toğrul özü isə həmişə repertuarında İ.S.Baxın, V.A.Motsartın, Y.Haydnun, F.Listinin əsərlərinə daha çox yer ayırır.

Öz üzərində yorulmadan çalışan Toğrul Məmmədov pandemiya dövründə də musiqidən bir an belə ayrılmayıb və 2020-2022-ci illərdə ABŞ-da, İngiltərədə, İsraildə və başqa ölkələrdə onlayn şəkildə keçirilən müsabiqələrə qatılaraq öncül yerlərə sahib olub.

Toğrulun arzuları böyükdür. Atası kimi gözəl musiqiçi olaraq gələcəkdə filarmoniyada solo konsertlə çıxış etmək onun ən böyük arzusudur.

**Sifai SƏFƏROVA**